vahid yaradır. Bu zaman digər qrammatik üsullardan da istifadə oluna bilər. Bəzi hallarda isə iki üsulun bir arada istifadəsinə də rast gəlmək olur. Bu zaman bu və ya digər bir üsul dominantlıq təşkil edir.

Digər tərəfdən, mənanın dildə ifadə tərzindən asılı olaraq dilin ifadə üsulu morfoloji (məna söz-forma çərçivəsində ifadə olunur) və qeyri-morfoloji (sintaktik, yəni məna söz birləşməsi və cümlə səviyyəsində ifadə edilir) ola bilər.

Məlumdur ki, həyatın bütün sahələri dilin lüğət tərkibində öz əksini tapır. Lüğət tərkibinin zənginləşməsi təbii ki, müxtəlif yollarla baş verir. Bununla belə, qeyd edək ki, dilin leksik bazasının zənginləşməsinin ən geniş yayılmış mənbəyi dilin öz daxili ehtiyatları və imkanlarıdır. Digər bir yolu isə başqa dillərdən predmetlərlə birgə gələn alınma sözlər, müxtəlif ictimai və təbiət hadisələrinin adlarının qəbul edilməsidir. Beləliklə, dilin lüğət tərkibi dəyişir və bu proses, qeyd edildiyi kimi, arası kəsilmədən intensiv şəkildə baş verir. Dünyanın əksər dillərində qrammatik məna istər analitik, istərsə də sintetik vasitələrlə ifadə olunur. Ancaq sırf sintetik və ya sırf analitik dil mövcud deyil. Ümumiyyətlə, hər hansı bir dilin bu və ya digər bir qrupa aid edilməsi onda analitik və sintetik vasitələrin çəkisi ilə müəyyən edilir. Sintetik vasitələrin heç olmadığı dilləri isə (çin, yapon, laos, tay və s.) amorf dillərə aid edirlər.

Elmi baxımdan tipologiya elə bir tədqiqat metodudur ki, müxtəlif və daxilən mürəkkəb obyektlərin oxşar xüsusiyyətlərini müəyyənləşdirməklə onların qruplaşmasını, bir-birinə yaxın olan xüsusiyyətləri əsasında onların müəyyən sinif və qruplara daxil edilməsini nəzərdə tutur. Müxtəlif elm sahələrində tipoloji tədqiqatlar bir-birindən prinsip və məntiqi yanaşmalarına görə də fərqlənə bilir. Məsələn, bioloji tipologiya təkamül prinsipinə, coğrafi, geoloji, etnoqrafik tipologiya obyektlər arasındakı iyerarxik münasibətlərə əsaslanır. Dil materialları əsasında aparılan tipoloji araşdırmalar isə müxtəlif dillərin bir-biri ilə müqayisəsi əsasında aparıldığı kimi, eyni bir dilin daxili materiallarının da tipoloji araşdırılması mümkün ola bilər. Bu zaman dildə mövcud olan kateqoriyaların, müxtəlif üsul və vasitələrin, eyni zamanda qrammatik mənanın ifadə vasitələrininin belə tipoloji tədqiqatı nəzərdə tutula bilər.

İnsanlar arasında ən mühüm ünsiyyət vasitəsi və ətraf gerçəkliyi dərk etmək formalarından ən vacibi olan dilə və onun kommunikativ roluna, dil hadisələrinə funksional yanaşma dilçilər üçün dilin fonoloji və qrammatik dil strukturlarının semantik xüsusiyyətlərini araşdırmaq üçün geniş imkanlar açmışdır. Fonologiya və qrammatika son dövrlərədək ən çox dilin formal təsviri, ümumi dilçilik planında isə deskriptiv dilçiliyin obyekti sayılırdı.

Morfoloji qoşulma üsulu əsasən mürəkkəb sözlərin yaradılması prosesində geniş istifadə edilən bir üsuldur. Qeyd etmək lazımdır ki, hər bir mürəkkəb və ya düzəltmə söz iki məna daşıyır: struktur-semantik və leksik. Bunlardan ikincisi birbaşa nominativ məqsəd daşıyaraq predmeti adlandırır. Struktur-semantik məna isə leksik mənanın təhlili baxımından əhəmiyyətlidir.

M.İ.Pavlovskaya struktur məna anlamında belə yazır: "Struktur məna dedikdə, sintaktik vahidlərin komponentləri arasındakı əlaqə və münasibətlərin ifadəsi kimi çıxış edən müəyyən qrammatik strukturlardan doğan siqnal və ya işarə nəzərdə tutulur" (Pavlovskaya, 1968: 244). Lakin "sırf struktur məna anlayışını morfoloji qoşulma yolu ilə formalaşan sözlərə aid etmək olarmı?" sualını cavablandırmaq üçün aşağıdakıları nəzərdən keçirək:

Söz yaradıcılığında morfoloji üsullar müxtəlif dillərdə müxtəlif mövqelərdə çıxış etsə də, türk dillərində sözyaratmanın aparıcı üsullarından biridir və bunun da əsasını leksik şəkilçilər təşkil edir. Bu dil ailəsinə daxil olan Azərbaycan dilində bu ailədən olan bir çox dillər kimi söz kökü başlanğıc forma ilə üst-üstə düşə bilər. S.Cəfərovun morfoloji üsul haqqındakı fikirlərini nəzərdən keçirdikdə belə bir qənaətə gəlmək olur ki, morfoloji yolla sözlərin əmələ gəlməsindən danışarkən ancaq şəkilçilər vasitəsilə yaranan sözlərdən bəhs etmək olar (Cəfərov, 1960: 24-132).

Müasir dövrdə N^1+N^2 tipli sözlərin ingilis dilində xüsusilə geniş yayılması bu dilin morfoloji şərtləri ilə (analitik) yanaşı həm də leksik-semantik özəlliyi ilə də səciyyələnir, yəni bu dildə istənilən semantik mənanı ifadə etmək üçün iki isim və ya ad bildirən söz asanlıqla atributiv əlaqəyə girə bilir. N^1+N^2 tipli qoşulmalarda N^1 N^2- yə münasibətdə təyin edən rolunda, mövqeyində olur.

Belə ki, ətraf aləmin gerçəkliklərinin təcəssümü kimi insan düşüncəsi və bu düşüncənin

gerçəkləşdirdiyi dildə ilkin əlaqələr əsasında formalaşan oxşar konstruksiyalara bu və ya digər dərəcədə rast gəlmək mümkündür. Məsələn, A^1+A^2 tipli morfoloji qoşulmadan düzələn sözlər iltisaqi dil sayılan Azərbaycan dilində də mövcuddur. Sınıqqəlbli, açıqürəkli, genişkürəkli və s. sözlər buna misal ola bilər. Yalnız flektiv dil olan rus dilindəki A^1+A^2 tipli morfoloji qoşulmalardan fərqli olaraq Azərbaycan dilində bu zaman interfiksasiyadan istifadə olunmur. Azərbaycan dilində, nümunələrdən göründüyü kimi, A^1+A^2 tipli morfoloji qoşulmalarda söz yaradıcılığı məhsulu olan hazır komponentlər bir-birinə qoşulmaqla bu tipdən olan mürəkkəb sözləri formalaşdırır. Belə qoşulmalar əsasında formalaşan birləşmələrin komponentləri düzəltmə sözlərdən ibarət olduğu kimi, sadə sözlərdən də ibarət ola bilir. Məsələn, al-əlvan, ağ-qara və s. Bu üsulla yaranan mürəkkəb sözlər nümunələrdən göründüyü kimi, əsasən defislə yazılır.

Ümumiyyətlə, N^1+N^2 və $A^1 + A^2$ tipli morfoloji qoşulmalar morfoloji üsulun sintaktik üsülla vahid vəhdəti kimi təzahür edir.

İnkorporasiya elə spesifik hadisədir ki, söz yaradıcılığının digər vasitələrindən fərqli olaraq morfoloji və sintaktik üsulların müəyyən əlamətlərini daşısa da, onun konkret olaraq bu üsullardan hansına aid edilməsi hələ də mübahisəli məsələdir. P.Y.Skorikin qeyd etdiyi kimi, inkorporativ kompleks elə xüsusi morfoloji vahiddir ki, o nə mürəkkəb söz, nə də söz birləşməsinə aid edilə bilməz.

Digər tərəfdən əgər inkorporativ kompleks mürəkkəb sözü xatırladırsa, o zaman ona söz yaradıcılığı vasitəsi və ya üsulu kimi də yanaşmaq olar. Bu barədə İ.İ.Meşaninovun "inkorporasiyanın mahiyyəti haqqında olan mübahisələr hələ də davam edir. Bir qrup tədqiqatçılar onu mürəkkəb sözlərin yaranmasında iştirak edən sözyaratma üsulu kimi, digər qrup tədqiqatçılar isə inkorporasiyanı sintaktik münasibətlərin ifadə üsulu kimi dəyərləndirirsə, üçüncü qrup tədqiqatçılar isə bu hadisəni nə söz yaradıcılığına, nə də sintaktik əlaqələrin ifadə üsuluna aid etməyərək onu yalnız xüsusi dillərə aid olan morfoloji-sintaktik hadisə kimi qiymətləndirirlər. Bu fikri dəstəkləyən P.Y.Skorik qeyd edir ki, "tədqiqatçıların bu hadisə haqqında yekdil fikri yoxdur... Əslində inkorporasiya müəyyən dillərə aid edilə bilən elə spesifik üsuldur ki, onun köməyi ilə morfoloji konstruksiyalar sintaktik konstruksiyaların ifadə edə biləcəyi mənaya ekvivalent olan mənanı ifadə edə bilir" (Pavlovskaya, 1968: 246).

Bütün qeyd edilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, inkorporasiya söz deyil, ifadə yaradır. Bu baxımdan inkorporativ dillərdə söz yaradıcılığından daha çox cümlələrin təşkil olunmasından danışmaq lazım gəlir.

Affiksasiya bir çox dillərdə aparıcı morfoloji üsul kimi çıxış edir. Dünya dillərinin, demək olar ki, hamısında affiksasiya morfoloji üsul kimi qrammatik əlaqələrin ifadəsində aparıcı mövqe tutur.

Z.Əliyeva affiks terminini bu cür şərh edir: "Affiks — bu formant iki funksiya daşıya bilir: a) Yeni söz yaradaraq, leksik-qrammatik funksiya daşıya bilir; b) Sözün qrammatik formasını dəyişib, funksional-qrammatik səciyyə daşıya bilir" (Əliyeva, 2011: 263).

Affikslər arasında son şəkilçilər, yəni suffikslər çeşid bolluğu ilə digər affikslərdən kəskin şəkildə fərqlənir. Bir sıra kateqoriyaların dildə təzahürü məhz suffiksasiya hesabına formalaşır. Məsələn, kəmiyyət kateqoriyasının dildə təzahürü suffiksasiya ilə xüsusilə bağlıdır. Qrammatik quruluşunda şəkilçilərin iştirakının bir o qədər də olmadığı ingilis dilində belə, kəmiyyət kateqoriyası –s və ya –es şəkilçiləri ilə formalaşır.

Suffiksasiya bir çox dünya dillərində söz yaradıcılığı səviyyəsində aparıcı mövqedə dayanan morfoloji üsul kimi dəyərləndirilir. Qeyd etmək istərdik ki, suffiksasiya söz yaradıcılığı səviyyəsində morfoloji üsulla sözyaratmanın xüsusi bir növü kimi özünü daha fərqli aspektlərdən göstərir. Bəzən bir sıra dillərdə suffiksasiyanın kombinə edilmiş formalarına da təsadüf etmək olur. Bu formalar arasında suffiksasiya daha çox preffiksasiya ilə eyni zamanda müşayiət olunur. Amma bu üsul müxtəlif dillərdə müşahidə olunsa da, söz yaradıcılığı prosesində bir o qədər də məhsuldar deyil. Məsələn, alman dilində prefiksasiya və suffiksasiyanın kombinə edilmiş forması kimi *de-* prefiksi ile *–ier-* suffiksinin bir arada feil yaradıcılığında iştirakını misal göstərmək olar: *defibrinieren* "fibrinin kəsmək (təbabətdə)", *depopulieren* "insanları boşaltmaq" (Cəfərov, 1960: 12).

Dünya dilçiliyində prefikslər ön şəkilçilər kimi tanınır və bu affikslər indiyə qədər müxtəlif cəhətlərdən elmi araşdırmalara cəlb olunmuşdur. Flektiv dil sayılan rus dilində prefikslərdən geniş istifadə edilməsi, iltisaqi dillərdə isə onların istənilən halda başqa dillərdən alınması morfoloji səviyyədə derivasiya prosesində prefiksasiyanın müxtəlif dillərdə təzahür etməsindən xəbər verir. prefikslər iltisaqi dillərdə alınma olsalar da, onlar sonralar daxil olduqları dillərdə öz sözyaratma potensialını qoruyub saxlamışdır. Müasir dövrdə dilin söz yaradiciliği səviyyəsində onlardan fəal şəkildə istifadə edilir. İnterfiks (inter — daxildə, içində; fixus — bitişdirici) bitişdirici sözyaradıcı (leksik) morfemdir.

Bəzi tədqiqatçılar, xüsisilə də ispan dili mütəxəssisləri bu dildə interfiksləri üzün müddət inkar edərək, interfikslər əvəzinə müəyyən suffikslərin mürəkkəb formalarından bəhs etməyə üstünlük vermişlər. Lakin Y.Malkielin tədqiqatlarından sonra interfikslərin ispan dilində varlığı qəbul edilməyə başlandı (Skorik, 1975).

İnterfikslər sırasına fars dilindəki izafəti də aid etmək olar. Lakin bu dildə izafətin iştirakı ilə formalaşan vahidlərin söz birləşməsinə daha yaxın olması onun bu statusa nə dərəcədə aid ola bilməsi haqqında şübhə yaradır.

Reduplikasiya yalnız ünsiyyət zamanı emosionallığa, ekspressivliyə xidmət edən dil faktı kimi deyil, eyni zamanda müasir dövrdə geniş vüsət alan və çoxəhatəli bir sektora çevrilən reklam sahəsində də əvəzedilməz dil hadisəsidir. Belə ki, istehsalçılar alıcı kütləsinin diqqətini çəkmək və səsləndirilən mətnin ritmik olmasını təmin etmək üçün məhz reduplikasiyadan istifadə edirlər. Reduplikasiyanın tətbiq edilməsində universal əlamətlərə, göründüyü kimi, reduplikasiyaya məruz qalan dil vahidinin tərəflərinin bir-biri ilə əlaqəsi (ifadə olunma aspektində və məzmun baxımından) daxildir. Reduplikasiya əsasında formalaşan dil işarələri üçün əsasən belə əlaqə aiddir: bir təsviri xarakterli dil vahidinə ifadə planında iki vahid münasib olur.

Reduplikasiyanın universal struktur və semantik xüsusiyyətləri ilə yanaşı hər bir dil üçün ayrılıqda səciyyəvi olan invariant xüsusiyyətləri və formaları da vardır. Apardığımız müşahidələrə görə, reduplikasiyanın məhsuldar modelləri eyni morfoloji quruluşa malik dillərdə daha çox təsadüf edilir. Müxtəlifsistemli dillərdə isə bu və ya digər modellərin məhsuldarlığı dilin morfoloji xüsusiyyətlərindən asılı olaraq dəyişir, yəni bir dil üçün məhsuldar olan model digər bir dildə ya az məhsuldar olur, ya da bu dilin morfoloji quruluşu həmin modelin bu dildə tətbiqinə imkan yaratmır.

Yuxarıda deyilənləri ümumilikdə nəzərdən keçirdikdə aşağıdakı nəticələrə gəlmək olar (Shirokova, 2000):

1. Türk dillərində reduplikatlar semantik və morfoloji əlamətlərlə xarakterizə olunursa, ingilis dilində onlar üçün morfoloji xüsusiyyətlər əsas götürülə bilər.

2. Rus dili türk dillərinin təsirinə məruz qaldığından bu dildə də reduplikasiya hadisəsinə rast gəlmək olur.

3. Reduplikasiyadan reklamlarda brendlərin asan yadda qalması və reklam mətnlərinin ritmik səslənməsi üçün istifadə edilir.

Konversiya maraqlı linqvistik hadisələrdən olub, dilin ifadə və məzmun planlarının qarşılıqlı nisbətdə öyrənilməsi zəminində meydana çıxır. Konversiya hadisəsi əsasən sıfır morfemlərin daha çox müşahidə olunduğu çin və ingilis dillərində özünü daha çox biruzə verir. Konversiya zamanı söz yeni sintaktik mühitə düşür, yeni sintaktik funksiya ilə çıxış edir və bu zaman yeni məna formalaşır, sözün morfoloji dəyişməsi nəticəsində digər paradiqmalar əmələ gəlir.

Bütün deyiləmləri ümumiləşdirib müxtəlifsistemli dillərdə morfoloji üsulda anomaliyaları aşağıdakı kimi qruplaşdırmaq olar (Maksimova, 2006):

N^1+N^2 və A^1+A^2 tipli morfoloji qoşulma üsulu analitik dillərdə geniş yayılsa da, flektiv və iltisaqi dillərdə fərqli şəkildə təzahür edir. Məsələn, flektiv dil olan rus dilində bu üsul interfiksasiya və suffiksasiya ilə müşayiət olunduğu halda (morfoloji-sintaktik), iltisaqi dil olan Azərbaycan dilində suffiksasiya ilə müşayiət olunur və sintaktik üsul kimi söz birləşmələrinin formalaşmasında fəal iştirak edir. N^1+N^2 tipli qoşulmalar bütün dillərdə eyni mövqedən çıxış etmir. Belə ki, ingilis və rus dillərində bu qoşulma mürəkkəb leksik vahid yaratdığı halda, Azərbaycan və alman dillərində əsasən sintaktik mövqedən çıxış edərək söz birləşmələrini formalaşdırır. Bəzən hətta, interfikslərin

iştirakı ilə müşayiət olunmasına baxmayaraq, yaratdığı söz-formalar mürəkkəb leksik bütöv və sintaktik vahid olan söz birləşmələri arasında ortaq mövqedə dayanır. Buradan belə qənaətə gəlmək olar ki, inkorporativ birləşmələr və ya cümlələr ifadəyaradıcı ixtisarlardır (abreviaturalardır). İnkorporativ komplekslərdə abreviasiya daxili üzvlərdən birinin demorfologizasiyası hesabına reallaşır. İnkorporasiya ilə söz yaradıcılığında işlədilən ixtisarlar arasındakı fərq ondan ibarətdir ki, ikinci sözyaratma aktında, birinci isə ifadələrin yaranması zamanı reallaşır.

Suffiksasiya morfoloji üsulun bir növü kimi əksər dünya dillərində söz yaradıcılığı səviyyəsində aparıcı mövqedə çıxış edir. Bir çox dillərdə suffiks dedikdə, morfemlər nəzərdə tutulursa, aparılan araşdırmalardan göründüyü kimi, dünya dillərində, eləcə də Azərbaycan dilində yarımsuffikslərdən də istifadə olunur və bu elementlər söz və şəkilçi arasında ortaq mövqedə dayanır. Deməli, yarımsuffikslərin varlığı və işləkliyi dilin hansı növə aid olmasından asılı deyil. Yarımsuffikslərə iltisaqi, flektiv və analitik dillərdə rast gəlmək olur. Bu növ şəkilçilərin inkorporativ dillərdə mövcudluğunu iddia etmək doğru deyil (Shishkina, 2010).

Prefiksasiya hadisəsi zamanı prefiks, perfiksoid və yarımprefiksasiya terminlər bir-birindən xüsusilə fərqləndirilməlidir. Belə ki, prefiks söz kökünun semantik tutumunda əsaslı şəkildə dəyişiklik edən morfem, prefiksoid müstəqil mənaya malik olan və morfemlə söz arasında keçid mövqedə dayanan hissəcikdir. Yarımprefiksasiya prefiksasiyanın bir növü kimi isə kök sözün semantikasını cüzi dəyişikliyə uğradır. Aparılan müşahidələr göstərir ki, müxtəlifsistemli dillərdə prefikslərin əksəriyyəti alınmadır və dillərdə onların iştirakı əsasən elm və texnikanın inkişafı və cəmiyyətin ictimai-siyasi həyatında baş verən dəyişikliklərdən bilavasitə asılıdır. Həmçinin, interfiksli sözlər çox zaman predikativ mövqedə dayanır.

Reduplikasiyanın universal struktur və semantik xüsusiyyətləri ilə yanaşı hər bir dil üçün ayrılıqda səciyyəvi olan invariant xüsusiyyətləri və formaları da vardır. Apardığımız müşahidələrə görə reduplikasiyanın məhsuldar modelləri eyni morfoloji quruluşa malik dillərdə daha çox təsadüf edilir. Müxtəlifsistemli dillərdə isə bu və ya digər modellərin məhsuldarlığı dilin spesifik morfoloji xüsusiyyətlərindən asılı olaraq dəyişir. Yəni bir dil üçün məhsuldar olan model, digər bir dildə ya az məhsuldar olur, ya da bu dilin morfoloji quruluşu həmin modelin bu dildə tətbiqinə imkan yaratmır.

Aqqlütinativ dillərdə reduplikasiyanın özəyi kimi sözün kökü, bəzi hallarda isə affikslər çıxış edir, flektiv dillərdə affikslərin reduplikasiyası daha çox təsadüf edilir, sözdaxili təkrarlar isə leksemlərin qoşalaşması ilə şərtlənir (Oxford Advanced Learner's Dictionary, 2010).

Apofonasiya hadisəsi tarixən səciyyəvi olaraq fono-morfoloji üsul kimi seqment və supraseqmentlərin fleksiyası hesabına reallaşır. Bu hadisəyə bu və ya digər şəkildə bir çox dünya dillərində, eləcə də bütün dil qruplarında təsadüf etmək olur. Apofonasiya söz yaradıcılığı üsulu kimi hətta bəzi dil kateqoriyalarının (məsələn, kəmiyyət, felin növ, zaman və şəkil kateqoriyalarının) ifadəçisi kimi çıxış edir.

Nəticə

Sözün paradiqmatik mənası kontekstdə daha dəqiq müəyyən edildiyindən konversiya bütün dillərdə kontekstdə nəzərdən keçirilir.

a. İngilis dilində əsas anomaliyalar:

- morfoloji səviyyədə əsas anomaliyalar: a) isimlərin cəm halının düzəlməsində, b) sözdüzəltmə və sözdəyişmədə, c) feillərin növ və zaman sistemində, ç) hal kateqoriyasında müşahidə olunur;
- yiyəlik hal (Possessive Case) bir sıra məhdudiyyətlərlə səciyyələnir. Bu məhdudiyyətlər mütləq deyil, ehtimal mahiyyəti daşıyır.

b. Rus dilində əsas anomaliyalar:

- bir tərəfdən isimlər arasında, digər tərəfdən də isimlərlə sifətlər, isimlərlə saylar, eləcə də isimlərlə əvəzliklər arasında qrammatik münasibətlər ziddiyyətlərlə səciyyələnir. Məsələn, bəzən ismin cəm halı ismin tək halından ayrılır və tamam başqa söz ilə ifadə olunur;
- ismin tək və cəm halının formaları arasında paralellik yoxdur: ismin cəm halının formalarında tək hala xas olmayan bir sıra qrammatik hadisələr yer tapır. Cəm hal üçün müxtəlif növ hallanmaların hibridləşməsi baş vermiş, sözlər arasında cins fərqi yoxa çıxmışdır;

- ismin cins kateqoriyasında çoxlu sayda dolaşıqlar və anlaşılmazlıqlar var. Daha doğrusu, eyni əşya dairəsinə aid olan predmetlərin fərqli cinslərə aid edilməsi, hallanmayan alınma sözlərin də fərqli cinslərə ayrılmasında heç bir qanunauyğunluq yoxdur. Qəribədir ki, rütbə, vəzifə, məşğuliyyət, peşə, sənət bildirən bir sıra sözlər hətta qadına aid olduqda belə, kişi cinsində işlədilir.

- hal kateqoriyası da sistemsizliyi ilə fərqlənir. Məsələn, bir halın genetik cəhətdən bir neçə qrammatik variantı olur, yaxud bir halın müəyyən funksiyaları başqa halların sistemi ilə üst-üstə düşür, xüsusiləşir və başqa qrammatik kateqoriyalara meylli olur. Rus dilində yalnız yönlük halın istifadəsi aydın semantik sistem təşkil edir.

c. Azərbaycan dilində əsas anomaliyalar:

- Azərbaycan dilinin məlum tarixi boyu onun qrammatik quruluşunda cüzi dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər, əsasən, fonetik, leksik səviyyələrə aiddir və minillik tarix üçün normaldır;

- iltisaqi quruluşu olan türk dilləri, o cümlədən Azərbaycan dili də söz kökünün dəyişməməsi, quruluşunun sistemliliyi, qrammatik qanunların və qaydaların sabitliyi ilə seçilir.

Ədəbiyyat

1. Pavlovskaya, M.I. (1968). K voprosu o strukturnom znachenii i strukturno-semanticheskikh modelyakh imennykh slovosochetaniy v sovremennom angliyskom yazyke Uch. zap. MG PIIYA vyp. 145, s.244-261.
2. Cəfərov, S. (1960). Azərbaycan dilində söz yaradıcılığı. Bakı: ADU, 204 s.
3. Əliyeva, Z.M. (2011). Türk dillərində sifət. B.: "Elm və Təhsil", 440 s.
4. Skorik, P.YA. (1975). Grammaticheskiye kategorii i strukturnyy tip yazyka. (na materiale inkorporiruyushchikh yazykov). V kn: Tipologiya grammaticheskikh kategoriy. Moskva, «Nauka», Moskva, 1975, 220 s., s.120-139.
5. Shirokova, A.V. (2000). Sravnitel'naya tipologiya raznostrukturnykh yazykov (fonetika, morfologiya). Moskva, «Dobrosvet», 200 s.
6. Maksimova, M. (2006). Naimenovaniya nevzroslykh lits v russkom i estonskom yazykakh (slovoobrazovaniye i semantika). Magisterskaya dissertatsiya. Tartu, 130 s.
7. Shishkina, A.A. (2010). Imennaya prefiksatsiya v sovremennykh derivatsionnykh protsessakh: stukturno-semanticheskiy aspekt analiza. AKD, Nizhniy Novgorod, 23 s.
8. Oxford Advanced Learner's Dictionary. (2010). Oxford University Press, 1796 p.

Göndərilib: 17.02.2024 Qəbul edilib: 10.04.2024

DOI: https://doi.org/10.36719/2706-6185/34/23-30

Fatma Betul Aydemir Bash
Baku State University
PhD student
fbetulaydemir@gmail.com
ORCID NO: 0000-0002-3445-8576

1989 FERGANA MASSACRE IN TURKISH NEWSPAPERS

Abstract

Meskhetian Turks were subjected to forced migration twice throughout their history and were never able to return to their homeland. Although there are different ideas about the roots of the Meskhetian Turks living in the Meskhetian region of the Caucasus, the majority believe that they are based on the Kipchak Turks and that they were under the influence of the Oghuz Turks in the 11th century. Meskhetian Turks, who are Sunni Muslims, lived under the rule of the Ottoman Empire for approximately 250 years. The Meskhetians, who later lived under Russian rule, were also exposed to Georgian chauvinism. Meskhetian Turks, who were subjected to forced exile in 1944 during the Soviet Union period, were exiled to the Fergana valley and started to live there. Their efforts to return to their homeland became impossible as Georgians settled in the places left behind by them, and they were forced to emigrate for the second time after the conflicts with the Uzbeks in 1989. They migrated to different regions of Russia, most of them to Azerbaijan. The events of 1989 were discussed from different perspectives in newspapers with different ideologies in the Turkish press. More importantly, it is understood from the newspaper articles that no one in Turkey has any information about who the Meskhetian Turks are. Meskhetian Turks began to be researched and known after 1989 in the Turkish media, which did not even have an idea of how they should be named.

Keywords: *Meskhetian Turks, 1989 Fergana incident, Turkish newspapers, Uzbekistan, Uzbek-Meskhetian Turks*

Fatma Betül Aydemir Baş
Bakı Dövlət Universiteti
doktorant
fbetulaydemir@gmail.com
ORCID NO: 0000-0002-3445-8576

1989 Fərqanə hadisələri Türkiyə qəzetlərində

Xülasə

Ahıska (Mexseti) türkləri tarixləri boyu iki dəfə məcburi köçə məruz qalıblar və bir daha öz vətənlərinə qayıda bilməyiblər. Qafqazın Ahıska bölgəsində yaşayan Ahıska türklərinin kökləri ilə bağlı müxtəlif fikirlər olsa da, əksəriyyət onların əsasını Qıpçaq türkləri olduğunu və XI əsrdə Oğuz türklərinin təsiri altında olduqlarını düşünülür. Sünni müsəlman olan Ahıska türkləri təxminən 250 il Osmanlı İmperiyasının hakimiyyəti altında yaşamışlar. Sonralar Rusiya hakimiyyəti altında yaşayan Ahıskalılar da gürcü şovinizminə məruz qalmışdılar. 1944-cü ildə Sovet İttifaqı dövründə məcburi sürgünə məruz qalan Ahıska türkləri Fərqanə vadisinə sürgün edilərək orada yaşamağa başlayıblar. Gürcülərin özlərindən qoyub getdikləri yerlərdə məskunlaşdıqları üçün vətənə qayıtmaq cəhdləri qeyri-mümkün olub və 1989-cu ildə özbəklərlə münaqişələrdən sonra ikinci dəfə mühacirət etməyə məcbur olublar. Onlar Rusiyanın müxtəlif bölgələrinə, əksəriyyəti isə Azərbaycana köçüblər. 1989-cu il hadisələri Türkiyə mətbuatında fərqli ideologiyaya malik qəzetlərdə müxtəlif aspektlərdən müzakirə olunub. Daha da önəmlisi, qəzet yazılarından belə anlaşılır ki, Türkiyədə Ahıska türklərinin kim olduğu haqda heç kimin məlumatı yoxdur. Məqalədə 1989-cu ildən sonra

Ahıska türklərinin necə adlandırılacağına dair bir fikri belə olmayan türk mediasında araşdırılmağa və tanınmağa başladı.

Açar sözlər: *Ahıska türkləri, 1989 Fərqanə hadisəsi, Türk qəzetləri, Özbəkistan, Özbək-Ahıska türkləri*

Introduction

Throughout history, the Mesheti (Georgian: მესხეთი) region, located within the borders of today's Georgia and in the southwestern part, has become the homeland of the Meskhetian Turks. This region remained under Ottoman rule until the Edirne agreement signed between the Ottomans and Russia in 1829. The region, which came under Russian rule after this agreement, continued its existence under Soviet rule with the establishment of the Soviet Union in 1922. During World War II, Meskhetian Turks living on the Turkish border were exiled on November 14, 1944, by Stalin's order, due to any possible cooperation with Turkey against Moscow. Meskhetians who were exiled to the lands of Central Asia settled in the lands to which they were exiled and tried to establish an order for themselves under difficult conditions. However, their life here ended with the conflicts that broke out between Uzbeks and Meskhetian Turks in Fergana in June 1989. As the events escalated in a short time, the Moscow administration decided to evacuate most of the Meskhetians from the region. Thus, Meskhetian Turks, who were subjected to forced migration for the second time, were settled in different regions within Russia and mostly in Azerbaijan (Ağara, 2004).

The conflicts that took place in June 1989 were first presented in the Turkish print media as arising from an argument that started in the marketplace, but later there were allegations that other reasons lay behind these conflicts. Cumhuriyet, Milliyet, Hürriyet, Tercüman and Türkiye newspapers, which have different ideologies in the Turkish press, reported on these conflicts by evaluating them from different perspectives. First of all, by pointing out that the Meskhetian Turks, whose names were heard for the first time with the Fergana massacre, appeared in Turkish newspapers with names such as “Misket Turks, Mesket Turks, Misketler, Mesketler, Mesketyalılar” and asked: "Who are the Meskhetian Turks?" It seems that an attempt is being made to find an answer to the question. It would be appropriate to say that in the majority of the news in the newspaper, in addition to the developments regarding the events, they tried to shed light on this issue by including information about who the Meskhetian Turks were and the exile they were subjected to in the historical process (Ahıska türkləri, 1990).

Khalida Devrisheva's study on the 1989 Fergana events, based on Russian and Turkish sources, makes a great contribution to the literature, but the information in Russian sources is predominant. Another important research work on Meskhetian Turks is the historical past of Meskhetian Turks in the book Meskhetian Turks A Transnational Community Transnational Families (Aydıngün, 2014), written by Ayshegul and Ismail Aydingun, and the history of the Meskhetian Turks, the exile of 1944 and the subsequent Fergana events of 1989, in the Soviet Union. It is a comprehensive work that reveals their forced migration to different regions and finally their migration to America. Although there have been studies on the history of Meskhetian Turks and the exile they were subjected to, an attempt was made to fill the gap in the literature on this subject with a study that evaluated the events experienced by Meskhetian Turks through the news published in Turkish newspapers (Özbəkistanda insanlar bir-birini qırır, ölüm-dirim savaşır, 1989).

In the first part of the study, the origin of the name Ahıska and the identity of the Meskhetian Turks were tried to be clarified, and in the second part, their forced migration to Central Asia by the order of Stalin in 1944 was mentioned. In the third chapter, the Fergana events of 1989 and finally how the 1989 Fergana events were covered in Turkish newspapers were examined and tried to be revealed (Etnik gərginlik davam edir, 1989).

1. The origin of the name Meskhetia (Ahıska) and the historical roots of Meskhetian (Ahıska) Turks.

It is known that the first settlements in the Meskhetia region date back to ancient times, and there are different approaches as to where the name Meskhetia comes from in this region, which has

hosted different civilizations. M.F.Kirzioglu, who conducted one of the first studies on Meskhetian Turks in Turkey, stated that the name Meskhetia (Ahıska) was encountered as "Ak-Eska" in a source in 481, and as "Ak-sıka" in the Book of Dede Korkut (Kırzioğlu, 1970: 203). It is noted that this word means "New Castle" in Georgian and is read as "Ahal-Tsihe". Considering these namings, it is noteworthy that every nation living in the region names this name in similar forms (Ahıska, Akhır-kıska, Ak Sıka) in their own language. Another name for the region is called Meskhetia. Z.V.Togan states that this name is based on the Masagets who came from the Mesk tribe, the son of Jafes, the son of Noah Nebi, and Mesek, the ancestor of Oghuz (Toğan, 1981: 410).

There are three different approaches regarding the origin of Meskhetian Turks. Considering the existing geographical region, population density and the surnames of the Meskhetian Turks, ideas have been put forward that the people of the region may be Georgians. In addition to this theory, Meskhetian Turks, who are also considered Azerbaijani, are wanted to be included among the Oghuz tribes. According to a third theory, Meskhetian Turks are considered relatives of the Tatars (Özbəkistanda qırğın davam edir, 1989).

The settlement area of Meskhetian Turks is on the starting points of the Kipchak tribes. In addition, the Meskhetian Turks, who have not mixed with the Azerbaijani Turks in terms of physical structure, are very similar to the Kipchaks in many points. The physical structures of the Meskhetian Turks different slightly from the Kipchaks, and this difference should be evaluated based on climate and geography. Surrounded by high mountain ranges, the Caucasus has an extremely harsh climate, and this climate structure makes the people of the region resistant to cold (Kalkan, 1998: 166-167). Due to these geographical influences, Oghuz Turks passed through these regions where the Kipchak Turks stayed. Assuming that they also influenced the Meskhetian Turks, the origin of today's Meskhetian Turks is explained in this way. Most likely, the Meskhetian Turks, who settled in the Caucasus and Georgia during the Kipchaks' transition to Europe, were clearly under the influence of the Oghuz tribes from the second half of the 12th century. The most valid date showing the exact settlement period of Meskhetian Turks in this region is the 11th and 12th centuries. F.Avshar wrote in his book: “After the Ottomans conquered Georgia in 1573, Turks selected from the Central Anatolia Region, especially Konya, Tokat and Yozgat, were settled in Meskhetia (Ahıska) and its surroundings” (Avşar, Solak, Yorulmaz, 1994: 15). Meskhetian Turks, who lived under the rule of the Ottoman Empire for a long time, became a complete example of Ottoman culture over time and integrated with the Eastern Anatolian Turks. With the Caucasus campaign he organized in 1578, he annexed the lands of the Meskhetian Atabeks to the Ottoman lands and the city of Akhıska became the capital of the newly established Childir (Çıldır) State. Childir State was the eastern border of the Ottoman Empire for approximately 250 years. Although the Russian Tsardom attacked several times on various dates (1807, 1810, 1811, 1812) to occupy Ahıska, which it saw as an obstacle to occupying Anatolia, it was not successful. In 1828, with the support of Georgians and Armenians, the Tsarist army captured the Ahıska Castle. Shortly after, under the pressure of the Russians, most of the Turks in the region migrated to Anatolia. With the Treaty of Edirne signed in 1829, Ahıska and Ahılkelek were left to the Russians as war compensation, while Kars, Ardahan and Chıldır remained in the Ottoman Empire (Özbəkistanda etnik gərginlik, 1989). After the 1877-1878 Ottoman-Russian War, known as the War of '93, with the loss of Kars, Ahıska remained far from the Turkish border. After this war, there was intense Armenian migration from Eastern Anatolia to the Meskhetia region. With the Brest-Litovsk Treaty signed in 1918, Kars, Ardahan and Batumi were given to the Soviet Union and then given back to Turkey. Following the 1917 Revolution, with the collapse of the Transcaucasian Federation, Azerbaijan, Armenia and Georgia established their own independent states in 1918. The people of Ahıska and Ahılkelek, who remained within the borders of Georgia, informed the Menshevik Georgian administration that they wanted to join Turkey by using their right to self-determination declared by the Soviets. With the Batumi Agreement signed at the end of the Batumi Conference held on 11 May-4 June 1918, the Georgian Government agreed to leave Ahıska and Ahılkelek to Turkey (Baydar-Aydıngün, Ayşegül, 2001: 65). However, within the framework of the Mudros

Armistice signed on October 18, 1918, Turkish troops had to withdraw from Ahıska and its surroundings, and Ahıska was taken over by the Georgians on December 5, 1918. The withdrawal of Turkish troops from the region resulted in the failure of the efforts of the people who tried to ensure that the region remained in Turkey. After Ahiska and its surroundings, Turkish troops evacuated Kars, Ardahan and Batum in February 1919 and retreated behind the 1914 borders. Turkey's eastern border was finalized with the 16 March 1921 Moscow and 13 October 1921 Kars agreements signed between the Turkish Grand National Assembly Government and the Soviet Union. According to the Moscow Treaty, while Ahıska, Ahılkelek and Batumi remained outside the borders of Turkey, Kars and Ardahan were included in Turkey. Azerbaijan, Georgia and Armenia accepted that the Moscow and Kars agreements are also valid for them. With the drawing of political borders, Turkey's physical/geographic ties with Ahıska were severed (Misket türkləri aclıq aksiyası keçirir, 1989; Özbəkistanda türklər bir-birinin boğazındadır, 1989).

2. Deportation of the Meskhetian Turks (14 November 1944).

In 1921, Georgia came completely under the control of the Soviet Union. The oppression that existed during the Tsarist Russia period also continued during the Soviet period. Since the 'localization' (Rus. korenizatsiya) policy continued until the end of the 1920s, Turkish education continued to be allowed. However, since the early 1930s, the Meskhetian people were also subjected to oppression due to Stalin's repression policy. In addition, the increase in Georgian Chauvinism left the Muslims and Turkish Meskhetians in Georgia in a difficult situation. Due to their proximity to Turkey, they were described as 'unreliable' by the Soviet regime, and for this reason they became unwanted people in the region. For this reason, some of the Meskhetian Turks tried to escape across the border to Turkey, and as a result, many families were dispersed. As a result of the increasing pressure from Stalin, the name "Turk" was tried to be forgotten in the Soviet Union, and the thesis was put forward that the Meskhetian Turks were Georgians who had converted to Islam. Thus, an attempt was made to eliminate Turkish identity (11; Özbəkistanda normala dönüş başlayıb, 1989).

Meskhetian Turks, who were not drafted into the military until World War II, were drafted into the army with this war. Approximately 40 thousand Meskhetian Turks were sent to the military, and the rest were employed in railway construction. However, they continued to be viewed as unreliable by the Soviet administration. The exile decision in 1944 was a decision taken to ensure border security. Soviet authorities to Meskhetian Turks; They announced that the exile was temporary, that they could return home soon, and that this was done to ensure their own safety against the German army. Meskhetian Turks were removed from their homes overnight on November 14, 1944 and exiled to the lands of Central Asia. They were settled in Uzbekistan, Kazakhstan and Kyrgyzstan. However, due to the difficult conditions during this exile, many people died on the way (Özbəkistanda münaqişə, 1989).

3. Fergana massacre in 1989.

Meskhetian Turks, who established a new life for themselves under difficult conditions in the Central Asian lands where they were exiled in 1944, had to relocate again in 1989. After 1944, they were subjected to 'Special settlement (Rus. Spetsposeleniye)' until 1956. In other words, they had to live a camp life without the right to leave a certain area and without the freedom to travel. After 1956, these restrictions were lifted and they were allowed to migrate to Azerbaijan as of 1958. Georgia prevented those who were subjected to migration from returning by stating that those who were displaced after 1944 were replaced by others. Meskhetian people migrated to Azerbaijani lands because Azerbaijan was close to them, Azerbaijan treated them warmly and was culturally close to them. Approximately 25-27 thousand Meskhetian Turks migrated to Azerbaijan until the mid-1980s (Məsket türkləri xüsusi düşərgələrə yerləşdirildi, 1989).

While the reforms announced after Gorbachev came to power in 1985 were expected to improve the deteriorating situation in the USSR, on the contrary, they had the opposite effect and the situation began to deteriorate. As a result of the high unemployment rate, especially among young people, the serious shortage of housing and basic necessities needed by the people, social injustice,

the obstruction of the spiritual (religious) demands of the local people, and the ignoring of the cultural and social demands of ethnic minorities, at the end of May 1989, Uzbekistan's Kuvasay the tension that started among young people in a market place in the city quickly turned into a conflict. These conflicts soon spread to other cities. Although an investigation was launched into this incident, the incidents continued and spread to other regions. It was determined that many Meskhetian young people were given alcohol and drugs on 3-4 June 1989. The houses of the Meskhetian Turks were made vulnerable to attack by placing red signs, the houses belonging to the Meskhetian Turks and everything in the region they lived in were burned and destroyed by a large group, and approximately 112 people died (Akiyeva, 2006: 17; Devrişeva, 2019: 1178). The Russian administration announced that it intervened in the events as soon as possible and transferred 16,282 Meskhetian Turks first to Tashkent and then to the Smolensk region of Russia and other regions by planes (Buqay, 2022: 40)

The tension that started on May 23-24 increased and turned into conflict in the first days of June. The date when Russian soldiers came to the region to intervene was June 4. The reason why Russian Internal Affairs, which was aware of the situation in the region, intervened in these events with a three-day delay has remained secret, and even though years have passed, no logical explanation has still been given on this issue (Devrişeva, 2019: 1178) Approximately 109,000 Meskhetian people lived throughout Uzbekistan. Within a year after the events, more than 17 thousand Meskhetians migrated to Kazakhstan, around 20 thousand Meskhetians migrated to other regions within Russia, and around 40 thousand Meskhetians migrated to Azerbaijan (Buay, Qanov, 2003: 838).

4. Fergana massacre in the Turkish press

In the Turkish press, it is claimed that the disaster occurred for many reasons. The alleged ones are as follows: 1. As a result of the fight between a Meskhetian Turk young man and a strawberry seller in a marketplace in the Fergana valley, the local Uzbeks revolted and caused a disaster. 2. Soviet leader Gorbachev caused such massacres to occur in different countries in order to keep the disintegrating communism alive and to distract the public from it. The third claim is that, starting from the 1970s, Meskhetian Turks living in Uzbekistan frequently applied to the UN and Turkish Embassies to return to their homeland. During this period, Gorbachev, who pursued a policy of avoiding the Georgians for the return of the Meskhetian Turks, revealed the Fergana events and made the Meskhetian people undesirable (Faiqov, 2015: 97).

The conflicts that started in a marketplace between Meskhetian Turks and Uzbeks in Uzbekistan in June 1989 were widely covered in Turkish newspapers. The news, which first appeared in the Cumhuriyet newspaper on June 5, under the title "Conflict in Uzbekistan", was based on the Soviet news agency TASS. The news states that there was a conflict between armed groups and the police, that the incidents involving deaths and injuries took place in the Fergana valley, where Meskhetian Turks live, and that armed groups also attacked official buildings. It was also reported that a curfew was declared in the region and a commission was established to investigate the events (Özbekistan'da çatışma, 1989). In the news titled "Baltic republics, Armenia, Azerbaijan, Georgia and... Now Uzbekistan" published in Milliyet newspaper on June 6, the speeches of Deputy Rahmetullah Ahmedov were included, and Ahmedov claimed that a group of Meskhetian Turks, whom he referred to as "extremist Turks", attacked Uzbeks. He made statements such as, "Young people resorted to this path for no reason" (İndi Özbəkistan, 1989). Tercüman newspaper, like Milliyet newspaper, included Rahmetullah Ahmedov's words in its news titled "Uzbek-Misket fight in Fergana, Turks clashed in Central Asia". The content of the news also stated that they were exiled from Georgian territory to Central Asia on the grounds that they were Stalin's "Turkish agents". Based on unclear information, it was also recorded in the news that 2 people died and there were injuries. On June 7, "Turks are slaughtering each other in Uzbekistan" in Milliyet newspaper, "Ethnic tension in Uzbekistan" in Cumhuriyet newspaper, "Massacre in Uzbekistan" in Tercuman, and "People are slaughtering each other in Uzbekistan, fighting to the death" in Hurriyet newspaper. Was included with the title (Özbəkistanda 9 min nəfərlik təhlükəsizlik qüvvələri təsirsiz

vəziyyətdədir, 1989). All the news in the content are based on Soviet agencies and newspapers, and it is stated that the number of deaths in the clashes is not clear, but it is around 48-50, and the number of injured is more than 200. It was reported that Gorbachev made a statement saying, "Those who participate in ethnic conflicts should listen to the voice of reason and desist from doing so" and that a security force of 6 thousand people was transferred to the Fergana region (Özbekistan'da Türkler boğaz boğaza, 7 Haziran; Özbekistan'da katliam, 7 Haziran; Özbekistan'da halk birbirini boğazlıyor, 7 Haziran; Özbekistan'da etnik gerilim, 7 Haziran) (Özbəkistanda vəziyyət normallaşır, 1989).

It has been reported in the news since June 8 that the events arose from an argument that started in a marketplace (Olayları Pazar kavgası, 8 Haziran) and although it was written that it was under control for now, Milliyet newspaper stated that the tension still continues, based on the Reuter news agency (Özbəkistanda qırğın, 1989). It was emphasized that nationalist elements continued to group together to continue their attacks and that the local administration failed to control it. Tercuman newspaper, in its report based on Pravda newspaper, stated that local administrators have completely lost control and the conflicts continue (Özbekistan'da katliam sürüyor, 8 Haziran). In the same issue, Fahir Armaoglu, in his column, referred to Meskhetian folk songs as Meskhetian folk songs, briefly talked about their history, and then criticized Gorbachev. He stated that they applauded Gorbachev in the name of democracy, saying that Gorbachev was particularly anti-Turkic, and that he elected a popular assembly under the guidance of the leftist circles in the Western world and Turkey, but that they turned a blind eye to the situation of the Turks of Crimea and Meskhetian (Ahıska), which was contrary to human rights (Armaoğlu, 1989: 6; Piriyeva, 2005).

In the news in Cumhuriyet newspaper on June 9, it was stated that the clashes continued and the death toll increased to 71. It was recorded that the events spread to the city of Kokand (Hokand), where Uzbeks raided police stations to find weapons, and some armed young people started a kind of hunt against Misket (Meskhetian) Turks and attacked wherever they found them (Ölü sayısı 71'e yükseldi, 9 Haziran). An interesting issue is also mentioned later in the same news. There was a small headline in the news: "Sunni-Shia conflict?" It is written and continues to say that it is suspicious that the conflict between Uzbeks and Meskhetian Turks started for such a small reason, and among the reasons that come to mind is sectarian differences (Mərmərlər "Türklərə Azadlıq" bayrağını acid, 1989). A sentence is written as follows: "Uzbeks are Sunni, while Meskhetian Turks, whose origins are Georgian, are from the Shia sect." However, Meskhetian Turks are not Georgian, the region where they lived before being exiled in 1944 is in Georgia. In addition, Meskhetian Turks are also from the Sunni sect. Although the name of the reporter who prepared the news was not given, it should be noted that he made a huge mistake in information and caused a wrong perception among the readers. Although news about the conflicts continued in the following days, the Sunni-Shia issue was not mentioned again. Until June 12, it was written in Turkish newspapers that the conflicts continued, the local administration was insufficient to intervene in the events and was blamed by Moscow for this reason (Güvenlik güçleri… 11 Haziran; Mesket türkleri güç durumda… 11 Haziran; Özbekistanda 9 bin kişilik güvenlik güçleri…10 Haziran) (Misket türkləri köç yolundadır, 1989).

Although Cumhuriyet, Milliyet and Tercuman newspapers published news headlines stating that the events in Uzbekistan were under control and started to return to normal as of June 12, it was specifically stated that the Uzbeks did not want Meskhetian Turks. It was also noted that Meskhetian Turks were temporarily taken into camps and taken under protection (Özbekistan'da durum normale dönüyor, 12 Haziran; Mesket türkleri özel kamplara… 12 Haziran; Özbekistan'da normale dönüş… 12 Haziran). It has been reported that approximately 10 thousand Meskhetian Turks, who were placed in temporary camps as of June 14, have started to be evacuated from the Fergana region. On the other hand, it was also noted in the news that some of the Meskhetian Turks tried to draw attention to the poor living conditions of the Meskhetian Turks by going on a hunger strike (Misket türkleri açlık grevinde, 14 Haziran) (Misket türkləri köç yolundadır, 1989).

Tercuman newspaper touched upon a different point regarding these events. He writes that the Soviet authorities tried to portray the events as the "Uzbeks Meskhetians Turks massacre", but behind the events lies their plot to sabotage the national movement that has become stronger in Uzbekistan. The news continued: "According to the information received from Hurriyet radio in Germany, which broadcasts to Turks living in the Soviet Union and other nations, the "Union" with 150 thousand members established by the Uzbeks, the "National operation of returning to the homeland" and the "National operation of Crimean Tatars" established by the Meskhetian Turks (Hadisələri bazar günü döyüşü başladı, 1989). The leaders of the three unofficial organizations called issued a joint statement on June 8, condemning the recent events and calling on them not to shed brotherly blood. In the declaration published by three organizations working for democratic reforms under the title "Appeal to the people of Fergana", it was stated that the Uzbeks and Meskhetians, who have been living together since 1944, were pitted against each other with a provocation to undermine the national movement, and the following was said: "Dear brothers, Uzbek, Tajik, Kyrgyz, Crimean Tatar, Meskhetian Turk brothers. Our history, religion and language were one. Our poverty, unemployment and misfortune were one. Now our disaster has happened. Stop, not to retreat, not to be defeated, but to think. Let's stop and find the real mischief makers. Let's agree among ourselves before they allow our great caravan, which has set out on a great journey, to divert to another path. Let us remain faithful to our thousands of centuries of history, to the memory, philanthropy and intelligence of our great ancestors in history." It was recorded as follows: "Let's not undermine our Turks, who are our partners." (Misketler "Türkler'e hürriyet" bayrağını açtı, 14 Haziran) (Hadisələri bazar günü döyüşü başladı, 1989).

